**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

Haraya: **Təmimi**

Çıxış nömrəsi: S/25-3777/25/17 Tarix: 14.02.2017

Sənəd necə göndərilir: Elekt. Poçt

Səhifələrin sayı: 1+1

Məhdudluğu: Xidməti

Təciliyi: Təcili

Vacibliyi: Vacib

Azərbaycan Respublikasının
diplomatik nümayəndəliklərinin
və konsulluqlarının rəhbərlərinə

Hörmətli diplomatik nümayəndəliklərin və konsulluqların rəhbərləri,

Bununla, "Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza rəsmiləşdirilməsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 30 noyabr tarixli 2577 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 fevral tarixli 2658 nömrəli Sərəncamı məlumat üçün Sizə göndərilir.

Hörmətlə,

Hüquqi təminat idarəsinin
rəisi Hüseyn Hüseynov

İcraçı: Gültən Hüseynzadə-Qafqazlı (MHTİ-nin III katibi)

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

**"Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza rəsmiləşdirilməsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 30 noyabr tarixli 2577 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza rəsmiləşdirilməsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 30 noyabr tarixli 2577 nömrəli Sərəncamını Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 oktyabr tarixli 1082 nömrəli Fərmanı ilə təsdiq edilmiş "ASAN Viza" sistemi haqqında Əsasnamə"yə uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza rəsmiləşdirilməsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 30 noyabr tarixli 2577 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1188) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.3-cü bənddən "elektron" sözü çıxarılsın.
2. 3-cü hissə ləğv edilsin.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası
Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, "9" fevral 2017-ci il

№ 2658